**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR AMERİKA ƏDƏBİYYATINDA KİÇİK HƏCMLİ NƏSR PROBLEMİ (Rey Bredberi və Stiven Kinqin hekayələri əsasında)

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)

Elm sahəsi: Filologiya

İddiaçı: **İlahə Adil qızı Məcidova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Aynur Zakir qızı Sabitova**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Nailə Məmmədhüseyn qızı Sadıqova**

filologiya üzrə fəlsəfə doktoru
**Arif Alim oğlu Əsədov**

filologiya üzrə fəlsəfə doktoru
**Mənsurə Tiflis qızı Ağayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası.

Dissertasiya şurasının
sədri: filologiya elmləri doktoru, professor
________________ **Azad Yəhya oğlu Məmmədov**

Dissertasiya şurasının
elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
________________ **İradə Nadir qızı Sərdarova**

Elmi seminarın
sədri: filologiya elmləri doktoru, professor
________________ **Şahin Həmid oğlu Xəlilli**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müstəqilliyimizin əldə olunmasından sonra Avropaya inteqrasiyaya meyillilik, milli-mənəvi dəyərlərimizin qorunması ilə qloballaşan dünyanın bir hissəsinə çevrilmək cəhdləri, inkişaf etmiş ölkələrin inkişaf strategiyasının tətbiqi elm və təhsil sisteminin təkmilləşməsini də labüd etmişdir. Uğurlu xarici siyasət nəticəsində Qərbin novator ideya və konsepsiyalarından müvəffəqiyyətlə bəhrələnən respublikamız mədəniyyət və incəsənət sahəsində də əlaqələrini genişləndirmiş, elm və təhsil sahəsindəki təkamül prosesini sürətləndirmişdir. Elm, təhsil və mədəniyyət sahəsindəki ortaq fikirlər, dövlət səviyyəsində avrointeqrasiya prosesinin labüdlüyünün vurğulanması Avropa mədəniyyətinin tədqiqatı və təbliğatı işinin daha geniş aspektdə aparılmasını zəruri edir. Bu əsasda, şübhəsiz ki, Avropa düşüncəsinin formalaşmasına misilsiz təsir göstərmiş Amerika mədəniyyətinin, xüsusilə ədəbiyyatının tədqiqi elm və təhsilin inkişafına töhfə vermək baxımından aktuallıq kəsb edir.

Uzun zaman ərzində ədəbiyyatımız əsassız şəkildə dünya ədəbi prosesindən təcrid olunduğundan Azərbaycan ədəbiyyatşünaslığında Qərb ədəbi tendensiyalarının araşdırılması mühüm addım hesab olunur. Bu nöqteyi-nəzərdən, milli ədəbiyyatşünaslığımızda Qərb ədəbi mühitinin, həmçinin Amerika ədəbiyyatının araşdırılması həm Qərbin dünyaduyumunu anlamaq, həm də ədəbiyyatımızda yeni ədəbi istiqamətlərin tətbiqi baxımından böyük əhəmiyyət kəsb edir.

Dünyada baş verən prosesləri ən xırda detalları ilə adekvat şəkildə əks etdirən, bir növ mövcud dünyanın alternativi hesab olunan ədəbiyyat təkcə ədəbi əsərlərin məzmun və ideyasının deyil, həmçinin Avropanın mental şüurunun müəyyənləşdirilməsi baxımından da mühüm məxəz rolu oynayır. Çağdaş Amerika paradiqmasının təhlili, texnokratik erada Amerika təfəkkürünün və dəyərlərinin öyrənilməsi, ədəbi aləmdə cərəyan edən tendensiyaların izlənilməsi təqdim edilən araşdırmanın aktuallığını şərtləndirir.

Müasir dünya ədəbiyyatındakı forma və məzmun modifikasiyalarının əsas qisminin Qərb ədəbiyyatı çərçivəsində gerçəkləşdiyini nəzərə alaraq deyə bilərik ki, Amerika ədəbiyyatında

aktual janrlardan hesab olunan hekayə janrının yaranması və təşəkkül tapması məhz Avropanın qəlibləşmiş ənənələrinə əsaslanır. Amerika mentallığının, fərqliliyi və mozaikliyi ilə seçilən spesifik amerikan təfəkkürünün əks olunduğu müasir kiçik həcmli nəsr nümunələrinin tədqiqi Amerika ədəbiyyatının Qərb ədəbiyyatı fonunda inkişafını sübut etsə də, hekayə janrının xarakterik xüsusiyyətlərinin və prinsiplərinin müəyyənləşməsində amerikan ədəbiyyatşünaslığının və ədəbi tənqidinin rolu təkzib edilməzdir. Bu mənada, professor Henri Kenbinin *"Əgər kiçik həcmli nəsr əsəri yazmaq üçün xüsusi yazı texnikası lazımdırsa, E.A.Po artıq onu kəşf edib"*[1] fikri ilə razılaşmamaq olmaz.

Müasir Amerika ədəbiyyatında hekayə janrının təkamül tarixinin izlənilməsi bizə janrın nəzəri və struktur prinsiplərinin məhz XIX əsrə əsaslandığını deməyə imkan verir. Bu baxımdan, Edqar Allan Po, Vaşinqton İrvinq, Nataniel Hotornun ənənələrinə əsaslanan müasir Amerika "kiçik nəsr"inin yaranmasını və təkamülünü şərtləndirən amillərin araşdırılması, Çarls Mey, Valeri Şou, Brander Mətyuz kimi alimlərin mülahizələrinin təhlili, dünya və Amerika ədəbiyyatında kiçik nəsr nümunələrindəki paralellərin təsbit edilməsi tədqiqat işinin aktuallığını şərtləndirən digər amillərdən hesab olunur.

Müasir Amerika ədəbiyyatında kiçik həcmli nəsr probleminin tədqiqinin məhz yaradıcılıqları janr və mövzu müxtəlifliyi ilə seçilən, dünya ədəbi fikir tarixində daha çox romanları ilə tanınan Rey Bredberi və Stiven Kinqin hekayələri əsasında aparılması, reallığın müxtəlif prizmalardan dəyərləndirilməsi, elmi fantastika janrı çərçivəsində fantastmaqorik təxəyyüllərin təsviri, antiutopik elementlər fonunda gələcək dünya modelinin təsəvvürü, irrasionallığın rasionallıqla çulğalaşması, texnokratik erada insanın psixo-emosional durumunun təhlili, qorxu janrı kontekstində insanın daxili dünyasının qaranlıq tərəflərinin üzə çıxarılması, amerikan cəmiyyətində uşaq və yeniyetmələrin problemlərinin psixoanalizi tədqiqatın aktuallığını aşkar edir.

---

[1] Canby, H.S. The short story in English: [Electronic resource] / H.S.Canby.– New York: Henry Holt and Company, – 1909. – 407 p. URL: https://archive.org/details/shortstoryineng00canbgoog/page/n226

Təqdim edilən tədqiqatın aktuallığını şərtləndirən digər mühüm amil dissertasiya çərçivəsində aparılan araşdırmanın ümumilikdə müasir dövr Amerika ədəbiyyatını və onun spesifikasını öyrənməyə imkan verməsi ilə bağlıdır. Belə ki, Azərbaycan ədəbiyyatşünaslığında XX əsr və daha əvvəlki dövr amerikan ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılıqlarının fərqli spektrlərinin tədqiqinə həsr olunmuş çoxlu sayda araşdırmalar mövcud olsa da, müasir Amerika ədəbiyyatında hekayə janrının nəzəri aspektdən təhlilini, həmçinin janrın inkişaf dinamikasının, mövzu dairəsinin Rey Bredberi və Stiven Kinqin yaradıcılığında təzahürünü hədəf alan geniş həcmli araşdırma mövcud deyil. Bununla belə, tədqiqat işinin struktur bölmələrinin ayrı-ayrılıqda dünya və Azərbaycan ədəbiyyatşünaslığında işlənmə dərəcəsini araşdırdıqda dəyərli tədqiqat nümunələri aşkar etmiş oluruq. Tədqiqat işimizin bölmələrinə uyğun Azərbaycan ədəbiyyatşünaslığında H.Ə.Xəlilovanın[2], R.A.Ömərovun[3], N.M.Sadıqovanın[4], D.Səmədovanın[5] və digər tədqiqatçıların əsərləri mövcuddur. Həmçinin həm postsovet ölkələrində, həm də Qərb ədəbiyyatşünaslığında bu sahədə maraqlı tədqiqat işlərinə rast gəlmək mümkündür. Rusdilli[6] və ingilisdilli ədəbiyyatşünaslıqda[7] amerikan "kiçik nəsr"inin nəzəri

---

[2] Xəlilova, H.Ə. Rey Bredberinin fantastik əsərlərində humanizm ideyaları // – Bakı: Elm və təhsil, Filologiya məsələləri, – 2017. № 3, – s. 44-49.

[3] Ömərov, R.A. XX əsr ABŞ və Azərbaycan ədəbiyyatında elmi-fantastik janr (Ayzek Əzimov və Emin Mahmudovun yaradıcılığı əsasında): / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2003. – 22 s.

[4] Sadıqova, N.M. Müasir Amerika elmi-fantastikası: Metod və janr problemi: filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 1987. – 154 s.

[5] Səmədova, D. Elmi fantastik ədəbiyyatın tədqiqi tarixinə bir nəzər // – Bakı: Elm və təhsil, Filologiya məsələləri, – 2017. № 1, – s.267-272.

[6] Кагарлицкий, Ю.И. Что такое фантастика? / Ю.И.Кагарлицкий. – М., – 1974. – 348 с.; Пальцев, Н. Страшные сказки Стивена Кинга: фантазии и реальность. Послесловие. / С.Кинг. Мертвая зона. – М., – 1987. – с. 410-428.

[7] Baldeshwiler, E. The Lyric Short Story: The Sketch of a History / E.Baldeshwiler. – Athens, Ohio University, – 1976. – p. 202-213; Gordimer, N. The Flash of Fireflies: The New Short Story Theories / N.Gordimer. – Athens: Ohio University Press, – 1994. – p. 263-267.

problemlərinin, fantastika janrının araşdırıldığı, Rey Bredberi[8] və Stiven Kinqin[9] yaradıcılığının müxtəlif aspektlərdən təhlilini hədəf almış çoxsaylı dissertasiyalar, monoqrafiyalar və məhdud həcmli tədqiqatlar mövcuddur. Ölkəmizdə bu mövzuda azsaylı tədqiqatların mövcudluğunu nəzərə alaraq deyə bilərik ki, müasir Amerika ədəbiyyatında hekayə janrının təkamül yolunun sistemli təhlili və janrın modifikasiyasının R.Bredberi və S.Kinqin əsərlərində izlənilməsi tədqiqat işinin ədəbiyyatşünaslığımız üçün mühüm aktuallığını şərtləndirmiş olur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müasir Amerika ədəbiyyatında "kiçik nəsr"in təkamül dinamikası və nəzəri prinsipləri, predmetini isə Amerika ədəbiyyatında "kiçik nəsr"in görkəmli nümayəndələri sayılan Rey Bredberi və Stiven Kinqin yaradıcılıqları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi hekayə janrının təşəkkülü kontekstində çağdaş Amerika ədəbiyyatının görkəmli nümayəndələri olan Rey Bredberinin və Stiven Kinqin hekayələrinin mövzu və problem dairəsini araşdırmaq və bu zəmində Amerika ədəbiyyatının son dövrləri ilə əlaqədar təsəvvür formalaşdırmaqdır. Qeyd olunan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələri reallaşdırmaq zərurəti yaranmışdır:

– Amerikan "kiçik nəsr"inin ilkin nəzəri-konseptual zümininin müəyyənləşdirilməsi;

– V.İrvinq, E.Po, Ş.Anderson, E.Heminquey və digər nasirlərin simasında Amerika ədəbiyyatında hekayə janrının təkamülünü izləmək və formalaşma xüsusiyyətlərini aşkar etmək;

– Amerika "kiçik nəsr"inin dünya ədəbiyyatındakı paralellərinin müəyyən edilməsi;

---

[8] Johnson, W.L. Ray Bradbury / W.L.Johnson – N.Y.: Ungar, cop. – 1980. –173 p.; Sullivan, A.T. Ray Bradbury and Fantasy // English Journal, Chicago,– 1972. Vol 61, № 9, – p.1309-1314

[9] Шафиева, У.Н. Единство фантастики и реальности в творчестве Стивена Кинга: [Электронный ресурс] / автореферат дисс.канд.филол.наук / – Баку, 2003. – 26 с. URL: https://cheloveknauka.com/v/492235/a#?page=26; Hoppenstand, G. The Gothic world of Stephen King: landscape of nightmares / GHoppenstand, R.Browne, G.Dumm. – Ohio: Bowling Green State University Popular Press, – 1987. – 143 p.

– Fantastika janrının tarixi və xüsusiyyətlərini araşdıraraq E.Po, C.O'Brayen, E.Berrouz, R.Haynlayn və A.Azimovun “kiçik nəsr”ində janrın təzahürünün öyrənilməsi;

– Rey Bredberinin hekayələrindəki gerçəklik və fantastika vəhdətinin araşdırılması;

– Rey Bredberinin yaratdığı obrazların psixo-emosional durumunun təhlilinin aparılması;

– Rey Bredberinin kiçik nəsr nümunələrindəki “fiktiv” gerçəkliyin antiutopiya janrı kontekstində araşdırılması;

– Stiven Kinqin hekayələrindəki fantastika və gerçəkliyin çulğalaşması probleminin təhlil edilməsi;

– Stiven Kinqin kiçik həcmli nəsr nümunələrində qorxu janrını səciyyələndirən amillərin müəyyən edilməsi;

– Stiven Kinqin hekayələrindəki uşaq və yeniyetmə obrazlarının özünəməxsusluğunun müəyyənləşdirilməsi.

**Tədqiqat metodları.** Tədqiqat zamanı tarixi-müqayisəli və analitik metodlardan istifadə edilmişdir. Tədqiqatın strukturu amerikan yazıçıları R.Bredberi və S.Kinqin kiçik nəsr nümunələrinin mövzu və problematikasının şərh olunmasına əsaslandığına görə ümumidən xüsusiyə keçidi əks etdirən deduktiv metoddan istifadə olunmuşdur. Həmçinin, tədqiqat zamanı qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq, təhlil, təsvir, müqayisəli təhlil kimi üsullardan istifadə edilmiş, müxtəlif tədqiqatçı alimlərin mövcud araşdırmalarındakı elmi qənaət və mülahizələrinə müraciət olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Amerika ədəbiyyatşünaslığında “kiçik nəsr”in nəzəri prinsiplərinin formalaşmasında V.Şou, B.Mətyuz və b. alimlərlə yanaşı, V.İrvinq, N.Hotorn, E.Po və b. yazıçıların da nəzəri fikirlərinin rolu danılmazdır;

– Amerika ədəbiyyatının təşəkkülü digər Avropa ölkələrinə nisbətən gec başladığına görə amerikan “kiçik nəsr”inin formalaşma mərhələsi XIX əsrə təsadüf edir. Belə ki, Amerika ədəbiyyatında “kiçik nəsr”in başlanğıcı Vaşinqton İrvinqin yaradıcılığı ilə müəyyənləşir;

– Amerikalıların genezisi müxtəlif xalqların kombinasiya-larından ibarət olduğundan amerikan ədəbiyyatında, xüsusilə kiçik

nəsr nümunələrində konseptual baxımdan dünya xalqlarının ədəbiyyatı ilə paralellər aşkar etmək mümkündür;

– Amerikan fantast yazarların kiçik nəsr əsərlərində fərdin futuristik və ya fərqli mühitdə hiss etdiyi özgələşmə duyğusu, həmçinin texno-dünyada şəxsiyyət axtarışına yönələn kimlik problemi kimi mövzular üstünlük təşkil edir;

– Rey Bredberi hekayələrində texnokratik erada insan və dünya toqquşmasının bir çox aspektlərini hədəf almaqla mövcudluq, ölümsüzlük xülyası, gələcək qorxusu kimi məsələlərdə mövqeyini açıqlamışdır;

– Rey Bredberinin hekayələri fantasmaqorik xüsusiyyətləri ilə yanaşı humanist konsepsiyası ilə seçildiyindən onu yumşaq və ya romantik elmi fantastika yazarı kimi tanımamaq mümkündür;

– Gələcəyin portretini bu gün mövcud olan tendensiyalar əsasında yaradan Rey Bredberi antiutopik hekayələri ilə həm texnofob kimi çıxış edir, həm də insana zərər verməyən texnologiyanın tərəfdaşı təəssüratı yaradır;

– Stiven Kinq kiçik həcmli nəsr əsərlərinin çoxunda fantastik elementlərdən istifadə etsə də, yazıçının fantastika janrında yazdığı hekayələrin bir çoxunda təsvir olunan dünya modelini elmi nöqteyi nəzərdən izah etmək müşkül olduğundan, həmçinin bu əsərlərdəki obrazların bəziləri reallıqla əlaqəsi olmayan mistik varlıqlar kimi təsvir olunduğundan fentezi janrına aid edilir;

– Stiven Kinqin "qorxu" hekayələri insanı emosiyaları ilə barışmağa, ibtidai fantaziyaları ilə toqquşmağa və öz "mən"ini tapmağa vadar edir;

– Z.Freydin şüursuzluq konsepsiyası, K.Yunqun arxetiplər nəzəriyyəsi Stiven Kinqin hekayələrində yaratdığı uşaq və yeniyetmə obrazların psixoloji problemlərinin təsbitinə yol açır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyini şərtləndirən əsas amil çağdaş amerikan ədəbiyyatının nümayəndəsi olan R.Bredberi və S.Kinqin yaradıcılıqlarının eyni müstəvidə – Amerika ədəbiyyatında "kiçik nəsr"inin təşəkkülü və inkişafı kontekstində sistemli şəkildə araşdırılması ilə bağlıdır. Həmçinin tədqiqatın elmi yeniliyini bu aspektlərdən də dəyərləndirmək mümkündür: birincisi, çağdaş Amerika ədəbiyyatında kiçik həcmli

nəsr probleminin sistemli tədqiq olunması; ikincisi, milli ədəbiyyatşünaslıqda müraciət etdiyimiz prizmalardan tədqiqata cəlb olunmamış Rey Bredberi və Stiven Kinqin hekayələrinin özünəməxsusluğunun üzə çıxarılması. Tədqiqatda ilk dəfə filoloji fikrimizdə amerikan "kiçik nəsr"i ilə bağlı nəzəri mülahizələr tədqiq edilir, Amerikada hekayə janrının yaranma dövrü və şəraiti nəzərdən keçirilərək, janrın R.Bredberi və S.Kinqin yaradıcılığındakı interpretasiyaları araşdırılır. R.Bredberi və S.Kinqin yaradıcılığının məhz çağdaş amerikan kiçik həcmli nəsrinin ideya-nəzəri prinsipləri əsasında təhlili müasir ədəbi-bədii mühitdə mövcud olan prosesləri daha dolğun şərh etməyə imkan verə biləcəyindən tədqiqat işinin elmi yeniliyinin əsas göstəricisi hesab oluna bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Amerika ədəbiyyatına xas tendensiyaların timsalında müasir Azərbaycan ədəbiyyatının bir sıra inkişaf qanunauyğunluqlarının müəyyən olunmasında, həmçinin ədəbiyyatımızda hekayə janrına yeni istiqamət verilməsində dissertasiya işi öz töhfəsini verə bilər. Bununla yanaşı, bir sıra elmi və nəzəri qənaətlər ilə tədqiqat işi müasir Amerika ədəbiyyatının inkişafının müxtəlif aspektlərini dəyərləndirmək məqsədini hədəf alan növbəti nəsil tədqiqatlar üçün kifayət qədər maraqlı təhlil materialı təqdim edir.

Dissertasiya işinin praktik əhəmiyyətinə gəlincə, tədqiqat işindən əldə edilən elmi nəticə, təhlil və ümumiləşdirmələr "Amerika ədəbiyyatı", "Müasir Amerika ədəbiyyatında hekayə janrı", "Amerika ədəbiyyatında fantastika janrı" kimi əsas və seçmə fənlərin, habelə magistratura pilləsində tədris edilən əlaqəli fənlərin tədrisində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatda irəli sürülən fikir və mülahizələr elmi mətbuatda, elmi-praktiki və beynəlxalq konfransların tezislərində öz əksini tapmışdır. Dissertasiya işinə dair müxtəlif məcmuələrdə 10 məqalə və 6 tezis çap edilmişdir. Bir məqalə və bir tezis xarici ölkədə nəşr olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi – 7 səhifə, 12049 işarə, I fəsil – 47 səhifə, 92645 işarə, II fəsil – 37 səhifə, 73276 işarə, III fəsil – 41 səhifə, 80350 işarə, nəticə – 4 səhifə, 6797 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 265117 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri təsbit edilir, tədqiqatın elmi yeniliyi, metodologiyası, nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilir, müdafiəyə çıxarılan müddəalar, tədqiqat işinin aprobasiyası və quruluşu haqqında məlumat təqdim edilir.

Dissertasiyanın **"XX əsr Amerika ədəbiyyatında "kiçik nəsr"in yaranması və təşəkkülü"** adlı I fəsli dörd paraqrafdan ibarətdir. ***"Amerika ədəbiyyatında "kiçik həcmli nəsr"ə nəzəri yanaşma"*** adlı ilk paraqrafda "kiçik nəsr" anlayışının genezisi tədqiq edilmiş, müxtəlif dövrlərdə kiçik həcmli nəsr nümunələrinin forma və məzmun problematikasını araşdırmış tədqiqatçıların mülahizələri nəzərdən keçirilmişdir.

Amerikanın digər mədəni impulsları kimi müasir hekayə də maraq və zövqdən formalaşan tələbatdan yaranmışdır. Novellanın hələ intibah dövründən gələn tarixi təcrübəsi, mövcud janr qanunları, bütövlükdə Qərb mədəniyyətinə xas estetik meyarlar və ədəbi-fəlsəfi prinsiplər Amerika ədəbiyyatına, həmçinin kiçik həcmli nəsr nümunələrinə də xas idi.

Hekayə janrı ilə bağlı tez-tez rast gəlinən tərif Şervud Anderson və "Ən yaxşı Amerikan hekayələri" toplusunun müəllifi Edvard Cozef O'Brayenin eyni mülahizəsinə əsaslanır: *"Hekayə çox uzun olmayan nəsr nümunəsidir"*[10]. Bu tərifin üstün cəhəti ondan

[10] Foley, M. The Best American Short Stories: 1952 / M.Foley. – Boston, – 1952. – 314 p.

ibarətdir ki, bu fikrə uyğun olmayan hekayə demək olar ki, yoxdur. Digər tərəfdən isə, bu mülahizə hekayə janrının mahiyyətini tam şəkildə ifadə etməkdə acizdir. E.A.Ponun "kiçik nəsr"lə bağlı qeyd etdiyi tərif isə anlayışın konseptualizminin aşkar olunması baxımından daha uyğun hesab olunur: *"Möhtərəm sənətkar fikirlərini öz həyat təcrübələrinə uyğunlaşdırmalıdır; lakin bu, diqqətlə düşünülərək mütləq mükəmməllik və sadə təsirlə işlənməlidir; o, (sənətkar) daha sonra hadisələri həzm-rabedən keçirir və əsas məqsədini icra etmək üçün onları yaradıcılıq dühasına uyğun formada birləşdirir"*[11].

Nəzəriyyəçi alim Suzan Ferqasanın fikrincə, *"romanla müqayisədə hekayənin dərki daha mürəkkəb proses olduğundan oxucu resepsiyası mütaliədə daha çox tələb olunur"*[12].

Azərbaycan nəsrinin usta yazarlarından olan Elçin Əfəndiyev hekayə janrı ilə bağlı məqaləsində çağdaş dövrdə janra münasibəti dəyərləndirərək qeyd edir ki, "*Bu gün povestin analitik təbiətindən, romanın sintetik mahiyyətindən çox danışılır, hekayə isə həyatı əks etdirən bir damcı kimi qiymətləndirilir. Lakin, bizcə, belə deyil və biz belə bir təsnifatın özünü elmi metodologiya baxımından naqis hesab edirik..."*[13].

XX əsrin 70-ci illərinə qədər hekayə janrı XIX əsrdəki parlaqlığını bir qədər itirsə də, yeni dövrdə "kiçik hekayə" *(flash fiction, sudden fiction)* deyilən bir və iki səhifədən ibarət olan ədəbi nümunələr yaranmağa başladı. Yazıçılar əvvəlcədən düşünülmüş təhkiyə və dil imkanlarından istifadə etdiklərindən bəzən "kiçik hekayə" nəsrlə yazılmış poetik nümunəyə bənzədilir[14]. Ümumilikdə,

---

[11] Poe, E.A. Essays and Reviews: Theory of Poetry / Reviews of British and Continental Authors / Reviews of American Authors and American Literature / Magazines and Criticism / The Literary & Social Scene / Articles and Marginalia / E.A.Poe. – New York: Library of America, – 1984. – 1544 p.

[12] Ferguson, C.S. Defining the Short Story. Impressionism and Form: in The New Short Stories Theories / C.S.Ferguson. – Athens, Ohio: Ohio University Press, – 1994. – p. 218-230.

[13] https://rc32.ucoz.ru/publ/f_ndiyev_elcin_yaradiciligi_hekay_janri_i_mkanlarimz_v_iddiamiz_m_qal/1-1-0-554

[14] VanSpanckeren, K. Outline of American Literature: [Electronic resource] / − United States Department of State, − 2010, − 177 p. URL:

janrın əleyhdarları kiçik hekayə janrının yaranmasını ənənəviliyin çökməsi, mütaliə bacarığının zəifləməsi kimi xarakterizə etsələr də, tərəfdarları fraqmentarlığın və minimalizmin aktual olduğu postmodern epoxada bu nəsr nümunələrinə tələbatın artdığı fikrini müdafiə edirlər.

I fəslin ***"Amerikan "kiçik nəsr"inin təkamülü"*** adlı ikinci paraqrafında Amerika ədəbiyyatında hekayə janrının yaranması və inkişaf dövrləri nəzərdən keçirilmiş, V.İrvinq, N.Hotorn və E.Podan başlayaraq M.Tven, C.London, T.Drayzer, Ş.Anderson, O.Henri, R.Karver, T.O'Brayen və b. yazıçıların kiçik nəsr nümunələrinin mövzu və problematikası araşdırılmışdır.

Amerikan hekayəsinin təşəkkülündə V.İrvinq və H.Melvilin rolu danılmaz olduğu kimi, janrının inkişaf tempinin artmasında E.A.Po və N.Hotornun rolu böyükdür. Amerika ədəbiyyatında "kiçik nəsr"in başlanğıcı V.İrvinqin yaradıcılığı ilə müəyyənləşmişdir. V.İrvinq Amerika ədəbiyyatında orijinal mənbələrə əsaslanaraq yerli materiallardan istifadə etmək tələbi ilə yaranan yeni məktəbin novatoru idi[15].

Sürreal və absurd təxəyyülə malik N.Hotorn və E.Ponun yazı üslubu nə qədər yaxın olsa da, E.A.Po estetikliyə daha çox əhəmiyyət verdiyi halda N.Hotorn hekayələrin əyləncəli olmağının tərəfdarı idi. N.Hotornun kiçik həcmli nəsrə verdiyi əsas töhfə daxili ziddiyyətləri, fərqli psixoloji durumları təhkiyəyə gətirməsi idi. E.A.Po "kiçik nəsr"də V.İrvinq, N.Hotorn və digərlərinin başlanğıcını qoyduğu təcrübəni davam etməklə kifayətlənmədi, həmçinin romantizm dövrünün xüsusiyyətlərini əks etdirən qotik, qorxu və detektiv novella janrının quruluşunun əsas elementlərini və prinsiplərini müəyyən etdi.

Sonrakı dövrlərdə hekayə ustası kimi tanınan Bret Hart "Hekayə janrının yüksəlişi" məqaləsində qeyd edirdi ki, *"E.Po, N.Hotorn, H.Lonqfello mükəmməl hekayələr yaratsalar da, onların heç biri Amerikanın coğrafiyasını yetərli qədər əks etdirmir.*

---

https://www.academia.edu/28839364/Kathryn_VanSpanckeren_Outline_of_American_Literature_2011_

[15] Pattee, F.L. Development of American short story / F.L.Pattee. – U.S.A.: Harper and Brothers Publishers, – 1923. – 408 p.

*Amerikan hekayəsinin sirri Amerika həyat tərzini əks etdirməklə və ənənəviliyin fetişizmindən uzaqlaşmamaqla müəyyənləşir"*[16].

XIX əsrin sonu XX əsrin əvvəllərində Amerika ədəbiyyatında yeni istiqamətin başlaması tənqidi realizmin inkişafı üçün zəmin yaratmışdır. M.Tven, C.London, O.Henri və T.Drayzerin hekayələri özünəməxsus ideya strukturuna görə kapitalist Amerikanın gündəlik həyatının təndiqi ifşasına yönəlmişdi.

Şervud Andersonun hekayələrində isə sənətkarın cəmiyyətdəki yeri məsələsi diqqət mərkəzində olmuşdur. Onun "Bləkfutun şah əsəri"[17] hekayəsində istedadlı sənətkarın cəmiyyətdəki faciəli taleyindən bəhs edilir.

XX əsrin II yarısından başlayaraq Amerika ədəbiyyatında yeni təmayüllər inkişaf etməyə başladığından dövrün yazarları dünyada baş verən mürəkkəb prosesləri təsvir edərək müasir insanın "robotlaşmasının" və "mexanikləşməsinin" əks təsirlərini göstərməyi çalışırdılar. Xüsusən, Amerikanın dünyada birinciliyə sahib olmaq iddiası ölkədə texnologiyaya olan marağın artmasına səbəb olduğundan bu proses ədəbiyyatda da öz əksini tapırdı.

***"Amerika "kiçik nəsr"inin dünya ədəbiyyatındakı paralelləri"*** adlı paraqrafda hekayə janrı çərçivəsində Amerika ədəbiyyatı ilə digər xalqların ədəbiyyatları arasındakı ideya və üslub bənzərlikləri araşdırılmışdır.

Tənqidçilərin bəziləri hekayələrinin sonluğunu gözlənilməz bitirməkdə O.Henrini Gi de Mopassanın davamçısı adlandırsa da, digərləri hər iki yazıçının yaradıcılığındakı paralellərə baxmayaraq üslublarının fərqli olduğunu iddia edirlər. Belə ki, O.Henrinin "Volxvların hədiyyəsi" hekayəsi ilə G.Mopassanın "Boyunbağı" hekayəsi üslub və ideya baxımından bir-birinə bənzəyir. G.Mopassanın bünövrəsini qoyduğu və O.Henrinin davam etdirdiyi təhkiyəni gözlənilməz sonluqla tamamlamaq texnikasından başqa yazıçıları bir-birinə bağlayan digər cəhət, yaşadıqları dövrə uyğun olaraq orta təbəqə insanının həyatını təsvir etmələridir.

---

[16] Smith, C. A. The American short story / C.A.Smith. – Boston and London: Ginn and Company Publishers, – 1912. – 50 p.

[17] Sherwood, A. The Sherwood Anderson reader / A.Sherwood. – Houghton Mifflin Co., – 1947. – 850 p.

O.Henrinin “Sonuncu yarpaq” hekayəsi mövzu baxımından görkəmli rus yazıçısı İvan Turgenevin “Mənim ağaclarım” adlı ədəbi nümunəsi ilə bənzərlik təşkil edir. Hekayələrin ideyası bir-birindən fərqlənsə də İ.Turgenev “Mənim ağaclarım” adlı hekayəsində O.Henri kimi insan həyatı ilə ağacın yarpaqlarını eyniləşdirərək harmoniya və bədii palitra yaradır.

XX əsr Amerika ədəbiyyatında feminist yazıçılardan hesab olunan Keyt Şopinin hekayələri G.Mopassanın hekayələri ilə müəyyən mənada bənzərlik təşkil edir. K.Şopinlə G.Mopassanın yaradıcılığının kəsişmə nöqtəsi “Bir saatın hekayəsi”, “Bir cüt corab” hekayələri ilə “Boyunbağı” əsəri arasında özünü göstərir. Cəmiyyətdə özünə inamı bərpa etməyə cəhd göstərən qadın obrazı yaradaraq G.Mopassan da K.Şopin kimi dövrünün qadınlarının daxili səsini özünəməxsus şəkildə ifadə etməyə çalışmışdır. Bundan başqa, K.Şopinin hekayələrindəki qadın problemi Afaq Məsudun “Sərçələr”, “Qəza” hekayələri ilə müqayisə oluna bilər.

Ümumiyyətlə, ədəbiyyatın problemi “insan” olduğundan zaman və məkandan asılı olmayaraq bəşəri mövzular təkrar olunur və çağdaş ədəbiyyatın təhlil aspektindən bu, heç də plaqiat hesab edilmir. O.Henrinin G.Mopassandan və ya Henri Ceymsin İ.Turgenevdən bəhrələnməsi yazıçıların ədəbi texnikasının zənginləşməsinə səbəb olmaqla yanaşı individual keyfiyyətlərinin görünməsinə də kölgə salmamışdır. Bununla o qənaətə gəlirik ki, Amerika ədəbiyyatı dünya ədəbiyyatına inteqrasiya edir, yeni ədəbi tendensiyalarla çulğalaşır və dünya ədəbiyyatının bir parçası olan amerikan “kiçik nəsr”i özündə yeni ədəbi meyilləri ehtiva edir. Müqayisələr bunu da sübut edir ki, Amerika ədəbiyyatı bir qədər gec formalaşmağına baxmayaraq heç də geri qalmayıb və yeni ədəbi tendensiyaları izləyərək dövrlə uzlaşır.

I fəslin ***“Amerikan “kiçik nəsr”ində fantastika janrının təzahürü”*** adlı sonuncu paraqrafında fantastika janrının genezisi və təkamülü araşdırılmış, həmçinin amerikan fantast yazarların kiçik nəsr nümunələri təhlil edilmişdir.

Darko Savinin fikrincə, elmi fantastik üslubun əsas dönüş nöqtəsi futuristik ehtimalların yayılmağa başladığı XIX əsrə təsadüf

edir[18]. XX əsrdə də davam edən bu proses bir çox yazıçıların diqqətini çəkmiş və A.Azimov, R.Haynlayn, R.Bredberi, S.Kinq və b. yazıçılar yaratdıqları əsərlərdə öz xəyal dünyalarının prizmalarından çıxış edərək futuristik proqnozlar verməyə müvəffəq olmuşlar.

Adam Sibon təxəllüsü ilə çap edilən, lakin müəllifi dənizçi Nataniel Ems adlı dənizçi olduğu güman edilən "Simzona" əsəri bəzi tədqiqatçılar tərəfindən Amerika elmi fantastik ədəbiyyatının başlanğıc nöqtəsi hesab olunur. Boş Torpaq ("Holow Earth") ideyasına əsaslanan əsərdə içi boş dünyanın yeni dövrün elmi araşdırma istiqaməti olduğu bildirilir.

Fantastik ünsürlərlə zəngin şeirləri, qorxulu hekayələri ilə dünya şöhrəti qazanmış E.Po fantastikanı gerçəkliklə əlaqələndirərək qeyd etmişdir ki, *"İnsan ruhu gerçəkdə olmayan heç bir şeyi xəyal edə bilməz"*[19]. Amerika ədəbiyyatına retrospektiv nəzər yetirdikdə məlum olur ki, fantastika janrının əzəli-əbədi xüsusiyyətləri elə məhz E.Ponun yaradıcılığında öz dolğun əksini tapmışdır. "Eros və Şarmionun söhbəti" adlı kiçik nəsr nümunəsində apokaliptik elmi fantastikaya müraciət edən yazıçının digər hekayəsi "Mellonta Tauta"da hadisələr 2848-ci ildə cərəyan edir və min il əvvəlki ABŞ-ni satirik şəkildə şərh etmək üçün Atlantik okeanı boyunca hava şarı ilə səyahətdən bəhs olunur.

Elmi fantastika janrının "qızıl dövrü"nün nümayəndələrindən olan R.Haynlayn fərdin özünə inamı, azadlıq məsələlərini qabardır, insanın cəmiyyət qarşısında öhdəlikləri, gələcək insan modeli, keçmişə qayıdış motivlərini təsvir edirdi.

Amerika ədəbiyyatında elmi fantastika janrına əvəzsiz töhfələr vermiş A.Azimovun qabaqcıl texnologiyadan, süni intellektdən və futuristik parametrlərdən bəhs etdiyi hekayələrində əsas motiv

---

[18] Roberts, A. The History of Science Fiction: [Electronic resource] / – Great Britain: Palgrave Macmillan, – 2006. – 387 p. URL: http://pcenglish.weebly.com/uploads/4/9/0/9/4909164/the-history-of-science-fiction.pdf

[19] Poe, E.A. Essays and Reviews: Theory of Poetry / Reviews of British and Continental Authors / Reviews of American Authors and American Literature / Magazines and Criticism / The Literary & Social Scene / Articles and Marginalia / E.A. Poe. – New York: Library of America, – 1984. – 1544 p.

robototexnika və süni intellektin etik və mənəvi nəticələridir. A.Azimov daha çox transformativ üsullarla cəmiyyətə təsir edən qabaqcıl texnologiya konsepsiyasını araşdırır.

Amerika "kiçik nəsr"ində elmi fantastik üslubun incilərini yaradan yazıçılar sırasında şübhəsiz ki, T.Çanın, F.Dikin, K.Vonnequtun, E.Qibsonun da adları qeyd edilməlidir. Qabaqcıl texnologiyanın bəşəriyyətə təsirini araşdıran, gələcək texnologiyalar və onların təsiri haqqında fərziyyələr irəli sürən yazıçıların kiçik nəsr əsərlərində fərdlərin futuristik və yad mühitlərdə şəxsiyyət axtarışına yönələn kimlik problemi kimi mövzular üstünlük təşkil edir.

Dissertasiyanın **"Rey Bredberinin "kiçik nəsr"inin spesifikası"** adlanan II fəsli üç paraqrafdan ibarətdir. ***"Rey Bredberinin hekayələrində gerçəklik və fantastikanın sintetik vəhdəti"*** adlı ilk paraqrafda elmi fantastika janrı çərçivəsində müəllifin texnokratik erada reallıq və hiperreallığa, insan və texnika probleminə münasibəti şərh edilmişdir.

Elmi fantastika janrından istifadə edərək intellektual əminliyi, güclü təsvir bacarığı ilə hal-hazırkı Amerikada və bütövlükdə Yer kürəsində mövcud olan durumu gələcəyə müncər etməyi məharətlə bacaran R.Bredberi deyirdi ki, *"Bəşəriyyətin tarixi xəyallarla başlayır. Elmi-fantastika isə elmin və xəyalların birliyidir. Sırf elmi yanaşmanı əsas götürən əsərlərdə möcüzə yoxdur. Gəncləri möcüzəyə inandırmaq lazımdır"* [20].

Yazıçının ədəbi irsini tədqiq edən məşhur amerikalı alim V.L.Conson onun yaradıcılıq istiqamətini belə təyin edir: *"R.Bredberi – xüsusi sənətkarlıqla öz arzularını kağıza köçürən yazıçıdır. Xeyirlə şərin mübarizəsinin Amerikanın balaca şəhərlərində və Marsda cərəyan etməsi onun magik arzularının uzunömürlü olmasına dəlalət edir"*[21].

Bu fikirdən çıxış edərək qeyd etmək olar ki, R.Bredberinin ədəbi-bədii nümunələri müasir Amerika ədəbiyyatında *Soft Sci-Fi* (yumşaq elmi fantastika) janrında yazılan əsərlər arasında böyük əhəmiyyət kəsb edir. "Mars xronikaları", "Şəkillərdəki insan",

---

[20] Mirzəzadə, T.N. Bədii ədəbiyyatda elmi fantastika janrı (dərs vəsaiti) / T.N.Mirzəzadə. – Bakı: Mütərcim, – 2023. – 136 s.
[21] Johnson, W.L. Ray Bradbury / W.L.Johnson – N.Y.: Ungar, cop. – 1980. –173 p.

“Günəşin qızıl almaları”, “Melanxoliya üçün dərman” hekayə külliyyatlarında yazıçı yeni dünyalar kəşf edərək, insanın gələcək həyatı, arzuları ilə bağlı mülahizələr irəli sürmüşdür.

Yazıçı “Sürgünlər” hekayəsində bir çox ədəbi simaları əsərinin baş obrazı kimi göstərərək yaratdığı fantastik dünyanı real səpkidə təqdim etməyə cəhd edir. E.A.Po, Ç.Dikkens, Ş.Bodler kimi tanınmış simaların Yer üzündən sürgün olunaraq gələcəyə göndərilməsi fikrini dəhşətli hesab edən müəllif bu hadisənin qarşısını almaq üçün onları əlçatmaz bir planetdə “məskunlaşdırır”. Kosmik eranın yeni inkvizitorları onların planetinə soxulmaq istəyəndə R.Bredberi süjeti başqa yönə dəyişir, hekayəyə yazıçıların əsərlərinin personajlarını daxil edir və beləliklə, E.Ponun “quzğun”u cəhalət və fanatizmlə mübarizədə fəal mənəviyyat fədaisi kimi çıxış edir.

Həqiqət və uydurmanın fantasmoqorik qarışığı, qalaktika mövzusu, gələcəklə bağlı futuristik ehtimallar yazıçının “Aramsız yağış”, “Raket”, “Göy gurultusunun səsi”, “Onlar qarayanız və qızılgöz idilər”, “Boşluq” kimi kiçik həcmli nəsr nümunələrinin əsas mövzusunu əhatə edir. Yeni təbiət qanunları, heyrətamiz texniki ixtiralar, fərqli planetlərə səyahət R.Bredberinin istifadə etdiyi əsas fantastik elementlərdir. Müəllifin əsərlərinin qəhrəmanları tipikləşdirilmiş ümumi personajlar deyil, onların hər biri fantastik ideyaların abstraktlaşdırılmış obrazlarıdır.

***“Rey Bredberinin kiçik həcmli nəsr əsərlərində obrazların psixo-emosional problemlərinin təhlili”*** adlı ikinci paraqrafda yaradıcılığı birbaşa humanizm fəlsəfəsinə əsaslanan R.Bredberinin obrazları psixoloji aspektdən təhlil olunmuşdur.

“Son gecə”, “Heç kəsin getmədiyi şəhər”, “Başbaşa” hekayələrində yazıçı insanın mövcudluğunun psixoloji nüanslarını üzə çıxarmağa, onun mənəvi axtarışına cavab tapmağa, təzadlarla əhatə olunmuş şəxsiyyətin daxili aləminin açılmasına səy göstərmişdir.

Müəllifin “Son gecə” hekayəsindəki obraz həyat yoldaşına yuxusunu danışaraq dünyanın sonuna sadəcə bir gecə qaldığını desə də, yoldaşı ona əhəmiyyət vermir, lakin sonra eyni yuxunun başqa insanlar tərəfindən görüldüyünü anlayanda buna inanmalı olur.

Avstriyalı alim, psixoanaliz nəzəriyyəsinin banisi Z.Freyd

“Yuxuların yozumu” kitabında yazır: *“Yuxu sıxışdırılmış arzuların təhrif olunmuş, pərdələnmiş şəkildə gerçəkləşməsidir... Yuxugörmə, hər şeydən öncə, ayıq durumun davamıdır*[22]. Hekayədəki hadisələr Soyuq müharibə, Koreya müharibəsi zamanı baş verdiyindən hər kəs ölümünə ya müharibənin, ya da hidrogen silahının səbəb olacağını düşünür və bunu özləri üçün haqsızlıq hesab edirlər. Digər tərəfdən, fəlakət dolu dünyada yaşayan obrazların təhtəlşüurlarında məhz sakit ölüm istəyi var və hər kəsin eyni yuxunu görməsi Z.Freydin mülahizələri ilə üst-üstə düşür.

Yazıçının kosmosun dəyəri barədə sosial şərhlərə əsaslanaraq yazdığı “Başlanğıcın sonu” hekayəsindəki ata və ana oğullarını kosmosa yola saldıqları üçün xoşbəxtdirlər, çünki kosmos övladlarına uzun və xoşbəxt həyat bəxş edəcək. Yazıçı gələcəkdə baş verə biləcək ümid dolu “səyahət”dən proqnoz versə də, əslində mövcud ekzistensial problemlərə toxunur.

R.Bredberinin “Heç kəsin getmədiyi şəhər”, “Edilməyən cinayətin cəzası”, “Başbaşa” və s. hekayələrindəki problematika onun güclü yaradıcılıq potensialı ilə bərabər, empatik qavrama gücünün intensivliyinə əsaslanır. Müəllifin humanizm konsepsiyası insanın mənəvi zənginliyə, azadlığa çağırışı və mütləq şəkildə xoşbəxt olmaq iddiası üzərində qurulub.

***“Rey Bredberinin hekayələrindəki “fiktiv” gerçəkliyin antiutopiya janrı kontekstində təhlili”*** adlı üçüncü paraqrafda antiutopiya janrının nəzəri prinsipləri təhlil edilmiş, R.Bredberinin kiçik həcmli nəsr nümunələrindəki antiutopik elementlər şərh olunmuşdur.

Gerçəkliyin fantastik modeli kimi təşəkkül tapan utopiya və eyni zamanda həm utopiyanın məntiqi əksi, həm də davamı kimi çıxış edən antiutopiya insanın dünyanı dərk etmə formalarından biridir. Biri digərindən törəmiş bu anlayışların əsas fərqi ondan ibarətdir ki, utopiyada real dünya ilə ideal dünya bir-birinə qarşı qoyulur. Antiutopiyada isə qeyri-ideal dünya real dünyanın içərisində mövcud olan müəyyən meyllərin nəticəsi kimi meydana çıxır.

Çağdaş dövrdə bir çox yazıçıların müraciət etdiyi elm və texnika qarşısında insanın acizliyi, totalitar idarə üsulu, müasir

---

[22] Freyd, Z. Yuxuların yozumu / Z.Freyd. – Bakı: Qanun, – 2014. – 580 s.

sivilizasiyasının deqradasiyası, ekoloji fəlakətlərin məhv etdiyi Yer kürəsinin başqa planetlərlə əvəz olunması, ölüm qorxusu, yaşamaq arzusu kimi mövzular R.Bredberini də narahat edirdi. Gələcək antiutopik dünyada bəşəriyyətin qarşılaşa biləcəyi cəhalətpərəstliyə həsr etdiyi "Təbəssüm" hekayəsində yazıçı "Mono Liza"nın portretinə çağdaş dövrdəki münasibətdən söz açır. 2061-ci ildə insanlar elm bayramı adlandırdıqları bayramda kitabları cıraraq, avtomobilə zərbələr endirərək əylənməyə çalışırlar. Onların növbəti əyləncəsi "Mono Liza"nın portretini parçalamaq arzusudur. Tom adlı uşaq isə portretin ecazkarlığı qarşısında donub qalır, qadının təbəssümü onu valeh etdiyindən o, portretə toxuna bilmir. Portret parçalanan zaman o, qadının təbəssümü olan parçanı heç kəsin cırmağına icazə vermir. "Mono Liza"nın portretinə münasibəti əslində mədəniyyətə, incəsənətə münasibət kimi dəyərləndirən R.Bredberi insanların incəsənəti heçə saydığı dövrdə Tom obrazı ilə xoşbəxt gələcəyə olan ümidini göstərməyə çalışmışdır.

Tədqiqatçı İ.Rodnyanskaya qeyd edir ki, *"R.Bredberiyə görə sivil cəhalətpərəstliyin bütün dəhşətləri diktatura rejiminin yaranması ilə deyil, əksinə, təkamül yolu ilə, rahatlıq və çiçəklənməyə doğru can atan insanların dincliyinin qorunması üçün görülən "zərərsiz" tədbirlər nəticəsində doğulurlar"*[23]. R.Bredberi hesab edir ki, mənəvi mədəniyyətin ölümü müasir sivilizasiyanın öz qurğuları ilə proqramlaşdırılmışdır.

R.Bredberinin "Piyada", "Tülkü və meşə" və s. hekayələrində "insan-texnika" qarşıdurması birbaşa əks olunmuşdur. Tədqiqatçı P. Molitvin hesab edir ki, *"texnika yazıçını müqayisə edilməyəcək dərəcədə az maraqlandırır*"[24]. Yaradıcılığı boyu R.Bredberi müxtəlif formalarda sivilizasiyanın dövri inkişafı konsepsiyasını irəli sürür və aydın şəkildə göstərir ki, "massivləşdirmə" mərhələsində – bəşəriyyətin ən yüksək nöqtəyə çatmaq üçün təbii və mədəni başlanğıca qayıtması qaçıдmazdır. Yazıçının təsvir etməkdən boyun

[23] Валериевна, Н.М. Художественный мир Рэя Брэдбери: традиции и новаторство: [Электронный ресурс] / автореферат дисс. канд.филол.наук / – Нижний Новгород, 2006. – 24 с. URL: http://www.dissercat.com/content/khudozhestvennyi-mir-reya-bredberi-traditsii-i-novatorstvo
[24] https://www.biography.com/people/ray-bradbury-9223240\

qaçırdığı "kütləvi" dövr antiutopik fikirlər ilə yeni nizamlanmış və harmoniyalı dövrün başlanğıcını qabaqlayır.

Dissertasiyanın III fəsli **"Stiven Kinqin yaradıcılığı çağdaş amerikan "kiçik nəsr"inin dinamikasının təcəssümünə nümunə kimi"** adlanır və 3 paraqrafdan ibarətdir. ***"Stiven Kinqin hekayələrində fantastika və gerçəkliyin çulğalaşması"*** adlanan ilk bölmədə yazıçının kiçik həcmli nəsr nümunələri fantastika və mistika fonunda təhlil olunur.

S.Kinqin yaradıcılığının problematikasına nəzər saldıqda məlum olur ki, müəllif yalnız bir ədəbi istiqamətdə fəaliyyət göstərməmiş, fantastika, elmi fantastika, qorxu və detektiv janrında əsərlər yazmağa meyl etmişdir. Yazıçı yazdığı ədəbi nümunələrlə, verdiyi müsahibələrlə özünün ideoloji-estetik mövqeyini demək olar ki, izah etmişdir: "*Mən sürreal və fantastik janrda yazmıram, lakin həm də insanların və cəmiyyətin əsaslarını tədqiq edərkən sürreal və fantastik elementlərdən istifadə edirəm*"[25].

Yazıçı böyük həcmli əsərlərinin sadəcə ikisində ("Tomminokers" və "O") elmi fantastika janrına müraciət etdiyi halda, kiçik həcmli nəsr nümunələrinin çoxunda janrın elementlərindən istifadə etmişdir. Müəllifin "Bütün bu çirkabın sonu" adlı əsəri fantasmoqorik elementlərlə zəngin olduğu qədər, antiutopik tematikası ilə də diqqət çəkir. İki yaşından oxuyub-yazmağı öyrənən Bobbi uşaqlığından sosioloji elmi tədqiqatlar aparmağa maraq göstərən qeyri-adi uşaq kimi təsvir olunur. Onun təhlillərinə görə, insanın gərgin və stressli olmağına səbəb sudur. Araşdırmasını daha da ciddiləşdirən Bobbi insanları qəzəb duyğusundan xilas edə biləcək kimyəvi məhlul düzəldir və püskürməkdə olan vulkanın içərisinə tökərək partlayış zamanı insanların aqressiyadan xilas olacağı ilə bağlı plan hazırlayır. Bobbi faktiki olaraq istəyini reallaşdırır, lakin sonra həmin kimyəvi maddə insanların sağlamlığında ciddi problemlərə yol açır və beləliklə onun yaratmağa çalışdığı utopik dünya çağdaş zamanın antiutopiyası ilə əvəz olunur.

[25] Magistrale, T. A Dark Night's Dreaming: Contemporary American Horror Fiction / T.Magistrale. – Columbia: South Carolina University Press, – 1995. – 138 p.

Fantastik motivlər S.Kinqin "Mən gedirəm", "Lənətlənmiş ekspedisiya", "Çimərlik dünyası" kimi hekayələrinin də ana xəttini təşkil edir. Rus alimi A.Y.Levinin *"Fantastik obraz və ideyaların əksəriyyəti müasir reallığın analoqları ilə daha dərin səviyyələrdə əlaqəli olduqlarından ictimai əhəmiyyətli məzmun yaratmaq və ötürmək qabiliyyətinə malik olurlar..."*[26] fikrini S.Kinqin yaradıcılığına aid etdikdə məlum olur ki, məhz bu səbəbdən yazıçının çağdaş Amerika ədəbiyyatındakı mövqeyi sarsılmazdır.

***"Qorxu" janrı Stiven Kinqin hekayələrini səciyyələndirən amillərdən biri kimi"*** adlanan ikinci paraqrafda dəhşətlər ədəbiyyatının mahiyyəti izah olunmuş, S.Kinqin qorxu janrındakı hekayələri təhlil olunmuşdur.

Rasionallıq və irrasionallığın xaotik gerçəkliyini nizamlamaq vasitəsi olan dəhşətlər ədəbiyyatı sivilizasiya örtüyü altında insanın vəhşi, heyvani xislətini gizlədir. Daima ört-basdır etməyə çalışdığı aqressiya, hədsiz azadlıq istəyi, başqalarına təsir etmək duyğusu insanı addım-addım izləsə də, insan əsl mahiyyətini yalnız onu narahat edən, qıcıqlandıran situasiyalarla qarşılaşanda aşkar edir. Tədqiqatçı Duqlas Uinter iddia edir ki, *"dəhşət fantastikasının bizə özümüzü və ekzistensial situasiyamızı başa düşməyə yardım edən açıq-aşkar katartik dəyərləri vardır. Onun əsas elementi isə gündəlik həyatla sirli, irrasional, gizli və fövqəltəbii aləm arasındakı toqquşmadır"*[27].

"Dəhşətlər kralı" təxəllüsü ilə tanınan müəllifin qorxu janrında yazdığı əsərləri onun yaradıcılığının zəngin ideoloji tərkibinin olması barədə fikir söyləməyə imkan verir. *"Qorxu hekayələri oxuyan insanlar dəlidirlər; Lakin sən əgər bir az da olsa dəli deyilsənsə, XX əsrin axırıncı on illiyində həyatla ayaqlaşa bilməzsən"*[28] deyən S.Kinq əsərlərinin əksəriyyətində gündəlik həyatda dəhşətli hesab

---

[26] Левин, А.Е. Англо-американская фантастика как социокультурный феномен // Вопросы философии, – 1976. № 3, – с. 146.
[27] Winter, D.E. Stephen King: The Art of Darkness / D.E.Winter. – New York: Dutton, – 1984. – 252 p.
[28] Magistrale, T. A Dark Night's Dreaming: Contemporary American Horror Fiction / T.Magistrale. – Columbia: South Carolina University Press, – 1995. – 138 p.

etdiyi hadisələri təsvir edir və bununla da, qorxunun insanın həyatı ilə əlaqəsini adekvat şəkildə göstərməyə çalışır.

Yazıçı hesab edir ki, *"dəhşətlər ədəbiyyatının cazibəsi ondadır ki, əsərlərdə təsvir olunan qorxu sanki əsrlər boyu ölümümüzün məşqi kimi bizim ruhumuza siraət edib"*[29]. Müəllif insanın qaranlıq tərəflərinin eskizini cızmaqla onu öz "əsl" reallığı ilə qarşı-qarşı qoyur, mən və "əsl" mən arasında toqquşma yaradır. Bu zaman mən və "əsl" mənin konstruksiyasındakı uyğunsuzluq üzə çıxır və S.Kinqin vurğulamaq istədiyi "hər kəsin həyatı xəyal qırıqlığından ibarətdir"[30] aksiomu öz təsdiqini tapır. O, qorxu janrını insanların həyatlarındakı uğursuzluqları və səhvləri üzə çıxaran metafora hesab edir.

S.Kinqin dəhşətlər ədəbiyyatına xas detallı təsvirləri "Dörd nömrəli ekspertiza otağı", "Cek Hamiltonun ölümü", "Ölüm otağı", "Elurianın kiçik tibb bacıları" kimi hekayələrində bilavasitə ortaya çıxır. Bu mistik səpkili kiçik nəsr nümunələri ilə yazıçı həm də qorxu janrının paradiqmasına uyğun bədii kolliziyalar yaradır.

***"Stiven Kinqin kiçik həcmli nəsr nümunələrindəki uşaq və yeniyetmə obrazları"*** adlı üçüncü paraqrafda yazıçının əsərlərindəki uşaq və yeniyetmə obrazlarının psixoanalizi verilir.

S.Kinq əsərlərində müasir postindustrial cəmiyyətdə uşaqların qorxularını, problemlərini işıqlandırmağa çalışır. "Skelet qrupu" kolleksiyasından olan "Bərə" adlı kiçik nəsr nümunəsində yazıçı Z.Freydin uşaq reqressiyası və repressiyasının tədqiqinə uyğun motivləri ilə obrazların həyatlarını təhlil edir. Yayın son gününün dadını çıxarmaq, yeniyetməliyə qədəm qoymaqlarını qeyd etmək üçün göldə çimməyə gedən dörd kollec tələbəsi bərəyə minməyə qərar verirlər. Bərə ilə sahildən uzaqlaşdıqdan sonra gözlənilməz hadisələr baş verir, suyun içində neft örtüyünə bənzəyən məxluq görünür. Uşaqların diqqətini çəkən mistik varlıq onları hipnotik vəziyyətə salır və bərədəki hər kəsi müəmmalı şəkildə öldürür.

---

[29] Кинг, С. Пляска смерти / С.Кинг. Перевод: Олег Колесников. – М., – 2002. – 416 с.

[30] Bloom, H. Stephen King (Modern Critical Views Series) / H.Bloom. – Philadelphia: Chelsea House Publishers, – 1998. – 256 p.

Həm Freydin, həm də Yunqun tədqiqatlarında su şüursuzluq simvolu kimi göstərilir. Bərə "uşaqların sığınacağı" (yəni uşaqlıqları) irrasional şüursuzluqla mühasirəyə alınıb, suda yaşayan məxluq isə uşaqlığın irrasional güclərini və anlayışlarını simvollaşdırır.

L.Bedlinin fikrincə, *S.Kinqin uşaq obrazlarına müraciət etməkdə məqsədi "müxtəlif yaşlı oxucu auditoriyasının "daxilindəki uşağı" oyatmaqdır". Uşaq obrazlarından istifadə etməklə S.Kinq özü oxucunun böyüməsinə kömək etmək istəyini izah edir və onun fikrincə insanın daxilindəki uşağı tapması böyümək üsullarından biridir*[31].

Bu fikirdən çıxış edərək qeyd edə bilərik ki, "Bərə", "Kitabxana polisi", "Meymun", "Olacağa çarə yoxdur" hekayələrinin təhlili S.Kinqin müasir Amerika cəmiyyətinin və ümumiyyətlə Qərb sivilizasiyasının problemlərini mistik şəkildə əks etdirdiyini söyləməyə əsas verir. Müəllif məqsədyönlü şəkildə uşaq obrazını bütövlük, şüurun və şüursuzluğun təzahürü, yenidən doğuş və ölüm fərziyyəsi, təcrübə ilə məsumluq, zəiflik və güc arasındakı sabitliyi və eyni zamanda yetkinliyə keçidin ağrılı simvolu kimi istifadə edir.

Dissertasiyanın **"Nəticə"** hissəsində aşağıdakı elmi müddəalar ümumiləşdirilir:

– İngilisdilli ədəbiyyatda "kiçik nəsr" akademik dəyərini XIX əsrin sonu, XX əsrin əvvəllərində qazansa da, novella janrının intibah dövrünə əsaslanan tarixi təcrübəsinin Amerika ədəbiyyatına əsaslı təsiri nəticəsində hekayənin müasir formasının təsbit olunması mümkün olmuşdur. Başlanğıcı V.İrvinqin yaradıcılığı ilə müəyyənləşən amerikan "kiçik nəsr"i E.A.Ponun yaradıcılığı ilə zirvəyə çatmış və yazıçı hekayə janrının ustadı olmaqla bərabər nəzəriyyəsini yaratmış mütəfəkkir kimi də tanınmışdır. T.Volf, H.Kenbi, B.Mətyuz, V.Şou kimi tədqiqatçılar da janrın formalaşma prosesinə təkan vermiş, janrda mənanın bütövlüyü, süjetin lakonikliyi, quruluşun simmetriyası kimi bəlli qaydalarla bağlı nəzəri mülahizələr irəli sürmüşdürlər.

– Keçdiyi təkamül yolunun heç bir mərhələsində yeknəsəq olmayan Amerika ədəbiyyatının formalaşması İstiqlaliyyət müharibəsindən sonra başlasa da Amerika ədəbiyyatının müstəqil

[31] Badley, L. Writing Horror and the Body. The Fiction of Stephen King. Clive Barker, and Anne Rice / L.Badley. – Westport, – 1996. – 200 p.

faktor kimi təşəkkülü bilavasitə romantizm dövrünə təsadüf edir. Hər zaman ictimai-siyasi proseslərin mərkəzində yer alan Amerika ədəbiyyatının statik mahiyyət kəsb etməməsi məhz ölkədəki həyat ritminin tez-tez dəyişməsi və bədii yaradıcılığın dinamikasının bu prosesə uyğunlaşması ilə əlaqədardır. XX əsrin II yarısından başlayaraq modernləşmənin və texniki tərəqqinin təkanı ilə Amerika ədəbiyyatında yeni təmayüllər inkişaf etməyə başlamış və bununla da, yaranmaqda olan kiçik həcmli nəsr nümunələrinin ideya-məzmun xüsusiyyətləri müəyyənləşmişdir.

– Müasir Amerika ədəbiyyatında kiçik həcmli nəsr probleminin təhlili hekayə janrı çərçivəsində ideya-məzmun baxımından dünya ədəbiyyatı ilə paralellərin, iqtibasların, allüziyaların mövcudluğunu söyləməyə əsas verir. G.Mopassan və O.Henri, K.Şopin və A.Məsud, İ.S. urgenev və H.Ceymsin kiçik həcmli nəsr nümunələrinin təhlili həmin müəlliflərin birinin digərinə bu və ya digər dərəcəli təsiri kimi səciyyələndirilə bilər və bu, Amerika ədəbiyyatının dünya ədəbiyyatına uyğun tendensiyaları davam etdirdiyi fikrini təsdiq edir.

– Amerikan "kiçik nəsri" çərçivəsində fantastika janrını təhlil edərkən məlum olur ki, fantastika janrında yazan müəlliflər əsərlərində xaotik dünyalar, alternativ reallıqlar yaradaraq geniş sosial şərhlərə zəmin yaradır, futuristik və ya spekulyativ mühit fonunda əsasən şəxsi dilemmalar və əxlaqi seçimlərlə mübarizə aparan insan faktoruna diqqət yetirirlər.

– Rey Bredberinin kiçik həcmli nəsr nümunələrinin elmi fantastika janrı kontekstində tədqiqi müəllifin bütün yaradıcılığından qırmızı xətlə keçən "reallıqdan qaçış" prinsipinin uğurlu və özünəməxsus təqdimatının yazıçının dərin təxəyyül və vizionerlik bacarığına əsaslandığını söyləməyə əsas verir. Reallığın hipperreallıqla, mövcud durumun futuristik proqnozlarla çulğalaşması, Marsla Yer arasındakı zaman və məsafə probleminin bəsit və cəlbedici formada təqdimatı R.Bredberinin hekayələrini elmi fantastika janrının parlaq nümunəsi kimi səciyyələndirməyə imkan verir.

– Ölüm və əbədi tənhalıq qorxusu, şəxsiyyətin deformasiyası, gizlədilməsi mümkünsüz olan aqressiyanın psixo-emosional partlayışı, dağıtma instinkti kimi psixi problemlər Rey Bredberinin "Son gecə", "Başbaşa", "Heç kəsin getmədiyi şəhər", "Mayak"

hekayələrində fərqli aspektlərdən təhlil edilir. Müəllifin humanizm konsepsiyası insanın mənəvi zənginliyi üzərində qurulduğundan o, insan varlığını yaradıcılığının fövqündə saxlayır, insanın texniki tərəqqinin fonunda kiçilmədiyini, əksinə idrakının qüdrətinə görə hər şeydən yüksəkdə dayandığını dönə-dönə vurğulayır.

– Hekayələrindəki "fiktiv" gerçəkliyin antiutopiya janrı kontekstində təhlilinə əsasən deyə bilərik ki, "Təbəssüm", "Piyada", "Tülkü və meşə", "Əbədiyyən və Dünya" hekayələrindəki antiutopik və ürküdücü dünya modeli R.Bredberini texnofob kimi tanıtsa da, "Elektrik bədəni nəğmələrimdə tərənnüm edirəm" və "Pas" hekayələrində o, texnologiyanın insanların həyatına olan müsbət təsirinin təfsilatlı təsvirini təqdim edir.

– Müasir amerikan ədəbiyyatının dinamik və dəyişkən impulslarına birmənalı yanaşmayan, cəmiyyətin reallıqlarını özünəməxsus mistik və "dəhşətli" formada oxucuya ötürməyə çalışan, yeni nəsil yazıçılardan sayılan Stiven Kinq "Bütün bu çirkabın sonu", "Yük maşınları" və s. hekayələri ilə çağdaş dünyadakı insan və texnika problemini real və irreal olanın çulğalaşması fonunda əks etdirir.

– Hekayələrinin qorxu janrı müstəvisində təhlili S.Kinqin ekzistensial təklik, ətraf aləmlə düşmənçilik, fizioloji, psixoloji, həm fərdi, həm də epidemik xarakterli qarşısı alınmayan xəstəlik, apokalipsis qorxusu və s. kimi "dəhşətlər janrının" sosial-kulturoloji mahiyyətinin anlaşılması üçün əsas olan nüansları yüksək yaradıcılıq fəhmi ilə təsvir etdiyini söyləməyə əsas verir.

– Əsas məqsədi ənənəvi normanı pozan insanların başlarına hansı dəhşətlərin gəlməsini göstərərək normanı möhkəmlətməkdən ibarət olan "dəhşətlər janrı" yalnız siyasi xarakterli problemləri deyil, həm də müasir cəmiyyətdə baş verən eybəcərlikləri nəzərdən keçirdiyindən antiutopiya ənənəsinə əsaslanır. Məhz bu nöqteyi-nəzərdən S.Kinq "Olacağa çarə yoxdur", "Kitabxana polisi" və s. hekayələrində uşaq və yeniyetmə obrazlarından istifadə etməklə həm psixoanaliz, həm də dəhşətlər ədəbiyyatı ənənəsinə müvafiq olaraq fərdin və cəmiyyətin problemlərini birlikdə nümayiş etdirir.

Yekun olaraq deyə bilərik ki, təhlil obyektimiz olan R.Bredberi və S.Kinqin ədəbi-bədii nümunələrində mənəvi-ruhi, mədəni, tarixi,

fəlsəfi və psixoloji-sosial xüsusiyyətləri sintetik vəhdətdə birləşdirən müasir amerikalı obrazı təqdim olunur. Bununla belə, hər iki sənətkarın yazı üslubu, müraciət etdikləri mövzular, hadisələrə yanaşma tərzi, obrazları, süjet və kompozisiya quruluşundakı özünəməxsusluq onların yaradıcı şəxsiyyətinin böyüklüyünün əsas meyarları hesab oluna bilər. Öngörücü süjetləri real həyatla səsləşən, hekayələrindəki hadisələr fantastik və ya futuristik dünyalarda baş verən R.Bredberinin ədəbi dili nə qədər poetik və lirikdirsə, yazı tərzi sadə və dili məişət üslubuna yaxın olan S.Kinqin əsərlərindəki hadisələr adətən müasir və ya tarixi şəraitdə, kiçik şəhərlərdə cərəyan edir. Ekzistensial suallara və cəmiyyətdəki dəyişikliklərin fərdlərə təsirinə diqqət yetirən R.Bredberidən fərqli olaraq S.Kinq fövqəltəbii qorxulara müraciət edir və insan təbiətinin qaranlıq tərəflərinə işıq salır. Həmçinin əsərlərində ənənəvi süjet qövsləri olmayan R.Bredberinin hekayələri bəzən tematik variasiyaları araşdıran bir-biri ilə əlaqəli mövzulara toxunan qeyri-xətti və ya epizodik strukturlara əsaslanır. S.Kinqin kiçik həcmli nəsr nümunələri isə adətən artan konflikt və gərginlik fonundakı xətti süjetlərlə daha çox ənənəvi hekayə quruluşunu xatırladır. Onun əsərlərində adətən mərkəzi kulminasiya nöqtəsinə yaxınlaşan çoxsaylı perspektivlər və alt süjetlər mövcud olur. Bununla da, deyə bilərik ki, roman janrında da əvəzsiz nümunələr yaratmaqlarına baxmayaraq Amerika ədəbiyyatına kiçik həcmli nəsr nümunələri ilə öz möhürlərini vurmuş R.Bredberi və S.Kinq hekayələrində ilk baxışdan bir-birinə zidd olan iki meyli birləşdirməyə nail olurlar: onlar bir tərəfdən sələflərindən əxz etdikləri, qəlibləşmiş ənənələri, yaradıcılıq prinsiplərini davam və inkişaf etdirirlər, digər tərəfdən isə artıq oturuşmuş ənənəvi bədii-estetik kateqoriyaları köklü şəkildə dəyişdirməklə, fantastik, mistik, antiutopik elementlər vasitəsilə bədii mətnin poetikasını yeni obraz və üsullarla zənginləşdirir və texnokratik erada amerikan gerçəkliyini, dünyəvi problemləri yeni və fərqli rakursdan dərk və təcəssüm etdirirlər.

***Tədqiqat işinin əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:***


1. Rey Bredberinin hekayələrində psixoloji motivlər // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2017. №13, – s.345-350.
2. Rey Bredberinin kiçik həcmli nəsrində futuristik proqnozlar // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2018. № 1, – s.118-121.
3. Bədii ədəbiyyatda elmi fantastika janrının təzahür formaları // – Bakı: Azərbaycanda xarici dillər, – 2018. № 3, – s.132-135.
4. Posttexnokratik erada insan və texnikanın toqquşması (Rey Bredberinin əsərləri əsasında) // Doktorant və gənc tədqiqatçıların XXII Respublika elmi konfransının materialları. – Bakı: ADPU, – 22-23 noyabr, – 2018, II cild, – s.248- 250.
5. İctimai-siyasi problemlər kodeksində Amerika ədəbiyyatının təşəkkül mərhələsi // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2019. № 4, – s.129-132.
6. Stiven Kinqin yaradıcılığında insan və “dəhşətli” dünya konsepsiyası // Ümummilli lider H.Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş “İnsan inkişafı. Dünyaya inteqrasiya” mövzusunda II beynəlxalq elmi konfransın materialları. – Bakı: AZMİU, – 2019, – s.218- 221.
7. The figure of the child in Stephen King’s prose // – Россия: Филологические науки. Вопросы теории и практики, – 2019. № 12, – p.104-107.
8. Ədəbi-bədii fikirdə utopiyadan antiutopiyaya keçid // – Bakı: ADU, Dil və ədəbiyyat, – 2020. № 2, – s.75-80.
9. Antiutopiya janrı Rey Bredberinin yaradıcılıq tendensiyalarından biri kimi // – Bakı: AEM, Elmi iş, – 2020. № 12, – s.87-90.
10. Сравнительный анализ современной малой прозы в мировой и Американской литературе // Labyrinths of Reality. Collection of scientifical works (based on materials of the VII International scientific and practical conference). – Ukraine: – February 14-15, – 2020, Issue 2 (7), – p. 46-50.
11. Stiven Kinqin ədəbi irsinin konseptual şərhi // – Bakı: AEM, Elmi iş, – 2021. № 1, – s.159-161.

12. S.Kinqin kiçik nəsr nümunələrində gerçəklik və mistikanın toqquşması // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2021. № 1, – s.139-142.
13. Qorxu janrının genezisi və spesifikası // The X international scientific symposium dedicated to the 880th anniversary of Nizami Ganjavi, “Science and education: yesterday, today, tomorrow”, – Stockholm: Sweden, – January 23, – 2021, – p.100-103.
14. Stiven Kinqin yaradıcılığında uşaqlıq konsepsiyası // Humanitar və ictimai elmlərin əsasları mövzusunda III Respublika konfransının materialları, – Bakı: AEM, – 30 aprel, – 2021, – s.78-80.
15. Stiven Kinqin hekayələrində qorxu janrının təzahürü // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2021. № 2, – s.111-113.
16. ABŞ “kiçik nəsr”inin nəzəri-ideoloji əsasları // The XXXVI International Scientific Symposium “Multidisciplinary Studies of the Turkish World” dedicated to the 125th anniversary of the famous Turkologist Amin Abid Gultekin. – Türkiyə, Eskişehir: – March 25, – 2023, – s.74-76.

Dissertasiyanın müdafiəsi 19 sentyabr 2024-cü il tarixində saat 12.00 Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 21 iyun 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.06.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 41 115 işarə

Tiraj: 100